# Kim Allah üçün bir məscid bina edərsə, Allah o kimsə üçün Cənnətdə o məscidin bənzərini bina edər» - dedi

Mahmud bin Ləbiddən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Osman bin Affan (Allah ondan razı olsun) Məscidun-Nəbəvini yenidən inşa etmək istədikdə, insanlar bunu xoş görməyərək Məscidin olduğu kimi qalmasını istədilər. Bunun üzərinə Osman (Allah ondan razı olsun): mən, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: «Kim Allah üçün bir məscid bina edərsə, Allah o kimsə üçün Cənnətdə o məscidin bənzərini bina edər» - dedi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Osman bin Affan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidinin binasını ilk inşaasından daha yaxşı bir şəkildə yenidən inşa etmək istədi. Məscidun-Nəbəvinin yenidən inşa edilməsi, Məscidin, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dönəmindəki şəklinin dəyişəcəyi bilən insanlar Osmanın (Allah ondan razı olsun) bu fikrini xoş qarşılamadılar. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidi kərpicdən, tavanı da xurma liflərindən edilmişdir. Lakin Osman (Allah ondan razı olsun) məscidi daş və kirəcdən yenidən inşa etmək istədi və insanlara Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə deyərkən eşitdiyini xəbər verdi: "Kim, riya və şan-şöhrət olmadan, yalınz Uca Allahın rizasına nail olma üçün bir məscid inşa edərsə, Allah, qulun etdiyi bu əməlin qarşılığını, etdiyi əməldən ən gözəli ilə mükafatlandıracaqdır. Bu mükafat da, Allahın Cənnətdə onun üçün bina etdiyinin bir bənzərini inşa etməsidir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee